**Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən 2024-cü ildə görülmüş işlərlə bağlı hesabat**

Rəsmi statistika məlumatlarının müasir tələblərə uyğun hazırlanması, milli statistika sisteminin inkişafı məsələlərini daim diqqət mərkəzində saxlayan Dövlət Statistika Komitəsi (bundan sonra - Komitə) 2024-cü ildə də öz fəaliyyətini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılaraq təsdiq edilmiş Statistik işlər proqramı əsasında qurmuş, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”dən, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasından, 2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramından, “Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı Tədbirlər Planı”ndan, “2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarından, digər normativ hüquqi aktlardan, BMT Baş Assambleyasının qəbul etdiyi “Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn vəzifələrin icrası, dəqiq və dolğun statistik məlumatlara, davamlı informasiya dəstəyinə olan tələbatın ödənilməsi məqsədilə zəruri tədbirlər görmüşdür.

“2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı” üzrə 2024-cü ildə 2 tədbirin icrası tam başa çatdırılaraq ümumilikdə 21 iş yerinə yetirilmiş, Komitənin digər dövlət proqramları üzrə icraçı kimi çıxış etdiyi tədbirlərin icrası da təmin edilmişdir. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin “Hasilat sənayesində şəffaflıq üzrə hesabatlılığın tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında” 2020-ci il 28 iyul tarixli, 1114 nömrəli Fərmanının icrası ilə əlaqədar aidiyyəti dövlət qurumlarından, hasilat sənayesində fəaliyyət göstərən müəssisələrdən məlumatlar toplanılmış, yoxlanılmış və həmin məlumatlar əsasında “Hasilat sənayesində şəffaflıq üzrə məcmu hesabat” adlı toplu hazırlanaraq “Hasilat Sənayesində Şəffaflıq” portalında yerləşdirilmişdir.

Seçmə statistik müayinələr vasitəsilə əldə edilən məlumatların istehsalı davam etdirilmiş, sorğu yolu ilə il ərzində müxtəlif mövzular üzrə 24 statistik müayinə keçirilmiş, əldə edilmiş məlumatlar icmallaşdırılaraq nəşr edilmiş, istifadəçilərə çatdırılmış və Komitənin internet səhifəsində yerləşdirilmişdir.

“Azərbaycan Respublikasında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi ilə bağlı Tədbir Planı”ndan irəli gələn tədbirlərin icrası ilə əlaqədar “Yaşıl inkişaf” üzrə statistik göstəricilər sistemi hazırlanmış və müvafiq məlumatların Komitənin rəsmi internet səhifəsində ASİS – statistik məlumatların yayım sisteminin bu məqsəd üçün yaradılmış hissəsində yerləşdirilməsi təmin olunmuşdur. Bununla yanaşı, sözügedən Tədbirlər Planına uyğun olaraq, Komitənin yerli statistika orqanları tərəfindən 2024-cü il ərzində 18,3 hektar ərazidə müxtəlif növdə 4877 ağac tingi əkilmişdir.

***Metodoloji iş və milli statistik təsnifatlar sisteminin inkişafı.*** 2024-cü ildə Komitənin əsas fəaliyyət istiqamətlərindən biri metodoloji bazanın möhkəmləndirilməsi olmuş, BMT, Avrostat, BVF, İƏİT, BƏT və digər beynəlxalq təşkilatların metodologiyalarına uyğunlaşdırılmaqla, habelə yerli qanunvericilikdə baş vermiş dəyişikliklər nəzərə alınmaqla 16 metodoloji material yenidən işlənilmiş, 37-nə isə müvafiq əlavə və dəyişikliklər edilmişdir. Statistika məlumatlarının keyfiyyətinin beynəlxalq tələblərə uyğunlaşdırılması məqsədilə statistik hesabat formalarının təkmilləşdirilməsi işi davam etdirilmiş, Komitənin Elmi-metodoloji şurasının 2024-cü ildə keçirilmiş 11 iclasında 55 məsələ müzakirə olunmuşdur. Komitənin

təşəbbüsü ilə aidiyyəti dövlət qurumları ilə razılaşdırılmaqla il ərzində 11 hesabat forması yeni redaksiyada təsdiq edilmiş, 3 hesabat forması ləğv edilmiş, 42 formaya isə aktuallığını itirmiş göstəricilərin çıxarılması, tələbata uyğun yenilərinin əlavə edilməsi ilə yenidən baxılmışdır.

“Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik”dən irəli gələn məsələlərin icrası ilə əlaqədar Azərbaycan Respublikasının Prezidentinə təqdim olunacaq hesabat üçün zəruri materiallar hazırlanaraq Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinə göndərilmişdir.

Milli statistik təsnifatlar sisteminin inkişafı sahəsində işlər davam etdirilmiş, “Bina və qurğuların funksional təyinat üzrə statistik təsnifatı”, “Statistik Fəaliyyət Təsnifatı”, “Məqsədlər üzrə fərdi istehlakın təsnifatı”, habelə Azərbaycan Respublikasının Ağdam, Ağdərə, Cəbrayıl, Füzuli, Xocalı, Xocavənd, Qubadlı, Laçın və Şuşa rayonlarının inzibati ərazi bölgüsündə edilmiş dəyişikliklərə əsasən “İnzibati Ərazi Bölgüsü Təsnifatı” yenilənərək təsdiq edilmişdir.

***Keyfiyyətin idarə olunması.*** Komitənin “Audit proqramı”na və Keyfiyyəti İdarəetmə Sisteminin tələblərinə uyğun olaraq struktur bölmələrdə və yerli statistika orqanlarında daxili auditlər, eləcə də yoxlama və nəzarət auditləri keçirilmiş, müəyyən edilmiş uyğunsuzluqların aradan qaldırılması üçün zəruri tədbirlər görülmüşdür. Keyfiyyəti idarəetmə sisteminin əhatə dairəsinin genişləndirilməsi istiqamətində müvafiq işlər görülərək daha 8 yerli statistika orqanında keyfiyyət sahəsində məqsədlər, proseslərin idarə olunması standartları və xəritələri, həmçinin lazımi sənədləşdirilmiş prosedurlar hazırlanaraq tətbiq edilmişdir. Sahibkarların statistika orqanları ilə münasibətlərində qarşılaşdıqları problemlərin öyrənilməsi və həlli məqsədilə Komitənin veb-səhifəsində hər rüb “Sahibkarlar üçün 7 sual” rəy sorğusu keçirilmiş, nəticələri ümumiləşdirilərək təhlil edilmiş və müvafiq tədbirlər görülmüşdür.

***Məlumat bazalarının inteqrasiyası***. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əmək müqaviləsi bildirişi üzrə müvafiq məlumatlarının Komitənin məlumat bazasına inteqrasiyası nəticəsində “İşçilərin sayı, hərəkəti və əməkhaqqı fondu haqqında” 4-əmək nömrəli aylıq rəsmi statistika hesabatı forması təkmilləşdirilmişdir. Eyni zamanda, məlumat bazalarının inteqrasiyası məqsədilə il ərzində Dövlət Miqrasiya Xidməti tərəfindən ötürülən məlumatlar yoxlanılaraq aşkarlanmış uyğunsuzluqların aradan qaldırılması istiqamətində işlər davam etdirilmiş, Komitənin “İnzibati Məlumatların İdarə Olunması Sistemi - ADİS” vasitəsilə Dövlət Miqrasiya Xidmətinin məlumatları ilə “Azərbaycan Respublikasında olan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər haqqında” 1 №-li (Miqrasiya) rəsmi statistika hesabatı forması üzrə məlumatların üzləşdirilməsi prosesi həyata keçirilmişdir.

***E-statistika***. Komitənin veb-səhifəsi (www.stat.gov.az) istifadəçilərin maraqlarının təmin edilməsi baxımından müntəzəm olaraq təkmilləşdirilmiş və yenilənmiş, məlumat bazaları əsas sosial-iqtisadi göstəricilər üzrə çoxsaylı cədvəlləri, təhlil və metodoloji materialları əhatə etmişdir. 2024-cü ildə internet səhifəsinə 91,3 faizi ölkə ərazisindən, 8,7 faizi isə xarici ölkələrdən olmaqla hər gün orta hesabla 10,4 min istifadəçi daxil olmuşdur. Veb-səhifədən istifadə vəziyyətinin, məlumatların əldə edilməsi ilə bağlı göstərilən xidmətlərin keyfiyyətinin, yayımlanan məlumatların dolğunluğunun, ümumiyyətlə istifadəçilərin məmnunluq dərəcəsinin qiymətləndirilməsi məqsədilə onların statistik məlumatlarla təmin olunmasına dair sorğu keçirilmişdir. Media subyektlərinin və vətəndaş cəmiyyəti institutlarının nümayəndələrinin də iştirak etdiyi sorğunun nəticələri ümumiləşdirilərək Komitənin internet səhifəsində yerləşdirilmişdir. Bununla yanaşı, Komitə tərəfindən göstərilən elektron xidmətlərin keyfiyyətinin qiymətləndirilməsi məqsədilə internet səhifənin “Elektron xidmətlər” bölməsi vasitəsilə “İstifadəçi məmnunluğu sorğusu” keçirilmiş və nəticələri təhlil edilmişdir. Sorğuda

iştirak etmiş istifadəçilərin 80,1%-i “Təqdim edilən elektron xidmətin keyfiyyətindən razısınızmı” sualına “Bəli”, 7,9%-i “Qismən”, 12,0%-i “Xeyr”; “Elektron xidmətdən istifadə Sizə hansı üstünlükləri verir” sualına 23,2%-i “Vaxt itkisini azaldır”, 23,3%-i “Rahatlığı təmin edir”, 23,4%-i “Neqativ halların baş verməməsi üçün bir vasitədir”, 30,1%-i “Digər üstünlükləri vardır”; “Elektron xidmətin təqdim edilməsi üçün hazırlanmış onlayn proqram təminatının strukturu Sizi qane edirmi” sualına isə 99,97%-i “Bəli”, 0,02%-i “Qismən”, 0,01%-i “Xeyr” cavabını qeyd etmişdir.

Rəsmi statistik hesabatların elektron qəbulu səviyyəsinin artırılması məqsədilə görülmüş tədbirlər nəticəsində “Rəsmi statistik hesabatların təqdim edilməsi” elektron xidməti vasitəsilə hesabat formalarını elektron şəkildə təqdim edən hüquqi və fiziki şəxslərin xüsusi çəkisi 97,0 faizi ötmüşdür. Bundan başqa, respondentlərin yerli statistika orqanlarına gəlmədən hesabatlılıq səviyyəsinin artırılması məqsədilə “Rəsmi statistik hesabatların təqdim edilməsi” elektron xidmətinə aid bölmədə əlavə 2 proqram təminatı, 3 bildiriş və təlimatdan ibarət “Statistik vahidlərin nəzərinə” altbölmə yaradılmışdır. “Təqdim ediləcək hesabatlar haqqında məlumat” proqram təminatlarının tətbiqi ilə hüquqi şəxslərə yerli statistika orqanlarına gəlmədən təqdim edəcəkləri hesabatlar haqqında məlumat əldə etmək və fəaliyyətin dayandırılması haqqında arayış təqdim etmək imkanı yaradılmışdır. Hüquqi və fiziki şəxslərə ləğv və dəyişiklik edilmiş rəsmi statistika hesabatı formaları haqqında informasiya xarakterli bildirişlərin, hesabat formaları üzrə məlumatların həcmi və təqdim olunma müddəti, bunlara riayət olunmadıqda ödənilməli olan cərimələr haqqında bildirişin 4-əmək və 12-istehsal (sənaye) nömrəli aylıq rəsmi statistika hesabatları ilə yanaşı, 12-ticarət nömrəli aylıq rəsmi statistika hesabatı üzrə də göndərilməsi təmin edilmişdir.

Komitə tərəfindən həyata keçirilən və Vahid Giriş (Login) Sisteminə inteqrasiya edilmiş “Sahibkarlıq subyektinə ölçüsünə görə aid olduğu kateqoriyaya dair elektron arayışın verilməsi” elektron xidmətinin Vahid Giriş (“ASAN Login”) sisteminin yeni - “Digital Login”-in təkmilləşdirilmiş 2-ci versiyasına keçidi tam təmin olunmuşdur. Bundan başqa, “Rəsmi statistik hesabatların təqdim edilməsi” elektron xidmətinin də “Digital Login”ə inteqrasiyası ilə bağlı hazırlıq işləri başa çatdırılmış, bu məqsədlə texniki işlərin alqoritmi və proqram təminatı hazırlanmışdır.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən yaradılmış Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminin yeni funksionallıqlarına uyğun olaraq, Komitədə istifadə olunan Elektron Sənəd Dövriyyəsi sistemi ilə Elektron Hökumət İnformasiya Sisteminin infrastrukturunda olan dövlət orqanlarının (qurumlarının) elektron sənəd dövriyyəsi sistemləri arasında real vaxt rejimində və təhlükəsiz qaydada sənəd mübadiləsinin aparılması ilə bağlı inteqrasiyanın və sənədlərin hərəkəti üzrə uçotun həyata keçirilməsi təmin edilmişdir. Eyni zamanda, Komitənin tabeliyində fəaliyyət göstərən rayon (şəhər) statistika idarələri, Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi və Elmi-Tədqiqat və Statistik İnnovasiyalar Mərkəzi Rəqəmsal Sənəd Dövriyyəsi altsisteminə inteqrasiya edilmişdir.

Statistik məlumatların emalı və yoxlanması prosesinin keyfiyyətinin təmin edilməsi üçün Keyfiyyətə nəzarət elektron proqram təminatında da təkmilləşdirmə işləri aparılmışdır. Ümumilikdə, respondentlər tərəfindən təqdim edilən 24 statistika hesabatı forması üzrə ilkin statistik məlumatlardakı uyğunsuzluqların nəzarət cədvəlləri vasitəsilə elektron formada aşkar edilərək emal prosesində aradan qaldırılması üçün zəruri işlər görülmüşdür.

Komitə tərəfindən göstərilən 6 elektron xidmətin (5-i interaktiv, 1-i informativ) hər biri “responsiv veb dizayn texnikası” ilə hazırlanmış və ağıllı telefon, planşet kimi müxtəlif ekran ölçülü cihazlarda bu xidmətlərdən istifadə zamanı səhifənin ölçülərinin cihazın ekran genişliyinə görə dəyişdirilməsi və cihaz ekranı ilə tam uyğun şəkildə istifadəçiyə təqdim olunması, həmçinin xidmətlərin İOS və Android platformalarında istifadəsi üçün müvafiq funksionallıqlar təmin edilmişdir. Bundan əlavə, Komitə tərəfindən həyata keçirilən “Rəsmi statistik hesabatların təqdim edilməsi” elektron xidmətinin, “Statistik vahidlərin nəzərinə” altbölmənin, “Təqdim ediləcək hesabatlar haqqında məlumat” proqram təminatının funksionallığının genişləndirilməsi məqsədilə həmin proqramın da mobil texnologiyalar vasitəsilə istifadəsi təmin edilmiş, hüquqi şəxslərə yerli statistika orqanlarına gəlmədən təqdim edəcəkləri hesabat formaları haqqında məlumat əldə etmək imkanının yaradılması üçün bu proqram təminatı üzrə HTML 5-in “Meta” teqi tətbiq edilmişdir.

Elektron xidmətlərin “Elektron hökumət” portalı vasitəsilə təqdimatına dair vətəndaşlar arasında ictimai maarifləndirmə tədbirlərinin həyata keçirilməsi məqsədilə Komitənin rəsmi internet səhifəsinin “E-xidmətlər” bölməsində bu xidmətlər haqqında ətraflı məlumatlar yerləşdirilmiş, “Facebook”, “Youtube”, “X” və “İnstagram” sosial şəbəkələrində Komitənin səhifəsinin aktiv fəaliyyəti təmin edilmiş və ölkənin sosial, iqtisadi göstəricilərini əks etdirən infoqrafikalar və videoçarxlar hazırlanaraq yayımlanmışdır. Həmçinin internet səhifənin mobil versiyasının mütəmadi olaraq təkmilləşdirilməsi və statistik məlumatların vaxtlı-vaxtında yenilənməsi davam etdirilmişdir.

***Kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq***. “2025-ci ildə Azərbaycan Respublikasında kənd təsərrüfatının siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 04 oktyabr tarixli, 357 nömrəli Qərarının icrası olaraq, 2024-cü il iyulun 15-dən avqustun 15-dək Ağsu rayonunun 3 inzibati ərazi dairəsi üzrə ümumilikdə 1942 təsərrüfatda kənd təsərrüfatının sınaq siyahıyaalınması keçirilmişdir. BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının nümayəndəsinin iştirakı ilə siyahıyaalma heyəti üçün təlim təşkil olunmuş, siyahıyaalma zamanı ilk dəfə CAPI (Computer Assisted Personal Interviewing – kompüter vasitəsilə şəxsi müsahibə) üsulu ilə əldə ediləcək məlumatların planşet tipli kompüterlərə (planşetlərə) daxil edilməsi üçün hazırlanmış xüsusi proqram təminatları və siyahıyaalma vərəqəsi uğurla sınaqdan keçirilmiş, sayıcılar tərəfindən məlumatlar planşetlər vasitəsilə toplanmış və məlumat bazasına ötürülmüşdür.

***Dayanıqlı İnkişaf Məqsədləri.*** Dayanıqlı İnkişaf Məqsədləri (DİM) göstəriciləri üzrə statistik məlumat bazasının genişləndirilməsi məqsədilə 19 yeni göstərici üzrə məlumatlar hazırlanmış, bununla da məlumat istehsalı təmin olunan DİM göstəricilərinin sayı 140-a çatdırılmışdır ki, onlardan da 109-u milli prioritet kimi müəyyən edilmiş göstəricilərdir. Bunlarla yanaşı, 2024-cü ildə ilk dəfə olaraq milli 18-ci DİM (“Mina təhlükəsi ilə mübarizəyə dair fəaliyyətlər”) göstəriciləri üzrə məlumatların toplanılmasına başlanmış və 14 göstərici üzrə məlumat istehsalı təmin edilmişdir.

***Çoxgöstəricili Klaster Sorğusu.*** Çoxgöstəricili Klaster Sorğusu (MICS) çərçivəsində işlər başa çatdırılmışdır. Sorğunun nəticələri ilə bağlı hesabatın layihəsi hazırlanmış, aidiyyəti dövlət qurumları və UNICEF-in Azərbaycan Respublikasındakı Nümayəndəliyi ilə müzakirə edilərək məqbul hesab olunmuş, UNICEF-in Regional Ofisi və Baş Qərargahına göndərilərək müsbət rəy alınmış və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 17 avqust tarixli 526s nömrəli Sərəncamı ilə Çoxgöstəricili Klaster Sorğusu ilə əlaqədar

yaradılmış İstiqamətləndirici Komitəyə təsdiq üçün təqdim olunmuşdur. İstiqamətləndirici Komitənin 2024-cü il 4 sentyabr tarixli iclasında MICS-in nəticələrinə dair hesabat təsdiq olunmuş, nəşr edilərək istifadəçilərə çatdırılmış, elektron variantı Dövlət Statistika Komitəsinin və UNICEF-in rəsmi internet səhifələrində yerləşdirilmişdir.

***Statistik məlumat istifadəçiləri ilə iş***. "2024-cü il üçün metodoloji və məlumat istifadəçiləri ilə iş planı"na uyğun olaraq statistik məlumat istifadəçilərinin (müxtəlif nazirlik, komitə, digər qurumlar, media nümayəndələri) iştirakı ilə məşğulluq və əməkhaqqı, dayanıqlı inkişaf və regionlar, təhsil, energetika və ətraf mühit, kənd təsərrüfatı, demoqrafiya, milli hesablar, turizm, qiymət, sənaye və tikinti, ticarət statistikası məsələlərinə, "Həyat keyfiyyətinin statistikası sahəsində keçirilmiş müayinələrdən (ev təsərrüfatları büdcələrinin tədqiqatı, əhalinin ərzağa əlyetərliyi səviyyəsinin öyrənilməsinə dair, ev təsərrüfatlarının bəzi mal və xidmətlərə əlyetərliyi və digər imkanları haqqında) əldə edilmiş göstəricilərin təhlili", "Dövlətstatkomun kommunikasiya strategiyası haqqında" və s. mövzulara həsr olunmuş seminar-görüşlər keçirilmişdir. Ümumilikdə, il ərzində Komitədə 203 istifadəçinin iştirakı ilə 13 görüş keçirilmişdir.

İl ərzində istifadəçilərdən Komitəyə daxil olan sorğular mütəmadi olaraq təhlil edilmiş, daha çox maraq doğuran göstəricilər müəyyənləşdirilmiş və nəşr edilən məlumatların istifadəçilərin sorğularına uyğunluğu təmin edilmişdir.

Hakimiyyət orqanlarının və digər statistik məlumat istifadəçilərinin cari tələbatlarının ödənilməsi məqsədilə 2024-cü ildə müxtəlif mövzular üzrə 32 adda illik statistik məcmuə və digər nəşrlər çap etdirilmiş, 52 təhlili məruzə və 125 mətbu-məlumat hazırlanmışdır. Statistik məcmuə və bülletenlərin elektron versiyaları Komitənin veb-səhifəsində yerləşdirilmişdir. Yerli statistika orqanları tərəfindən də rayon və şəhərlər üzrə illik statistik məcmuələr nəşr edilmiş, 273 təhlili məruzə hazırlanmışdır. Rəqəmsal inkişafı əks etdirən yeni statistik göstəricilər hazırlanmış, müvafiq məlumatlar "Azərbaycanda rəqəmsal inkişaf" məcmuəsinin 2024-cü il nəşrinə daxil edilmiş və Komitənin ASİS-məlumatların yayım sisteminə əlavə olunmuşdur.

***Beynəlxalq əməkdaşlıq.*** 2024-cü ildə Komitənin fəaliyyətinin əsas istiqamətlərindən birini də beynəlxalq təşkilatlarla əməkdaşlıq təşkil etmişdir. BMT və onun təşkilatları, Avropa İttifaqı, BVF, Dünya Bankı, Asiya İnkişaf Bankı, İƏİT, İƏT, Avrostat, MDB Dövlətlərarası Statistika Komitəsi və bir sıra digər beynəlxalq təşkilatlarla, həmçinin dünya ölkələrinin milli statistika xidmətləri ilə əməkdaşlıq, eyni zamanda milli metodologiyaların beynəlxalq standartlara uyğunlaşdırılması, təcrübə mübadiləsinin aparılması, qabaqcıl təcrübələrin öyrənilməsi və tətbiqi, beynəlxalq məlumat portallarında Azərbaycan Respublikasına aid statistik məlumatların yoxlanılması, aşkar edilmiş uyğunsuzluqların aradan qaldırılması istiqamətində beynəlxalq təşkilatlarla işlər davam etdirilmişdir.

MDB iştirakçısı olan dövlətlərin Statistika Xidmətləri Rəhbərləri Şurasının 2024-cü ilin 5 dekabr tarixində keçirilmiş 71-ci iclasında qəbul edilmiş qərara əsasən, 2025-ci ildə sözügedən Şuraya rəhbərlik Azərbaycana keçmişdir.

Vyetnam Sosialist Respublikasının Baş Statistika İdarəsinin baş direktorunun rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri çərçivəsində 2024-cü il dekabrın 17-də Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Vyetnam Baş Statistika İdarəsi arasında "Statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" imzalanmışdır.

Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında, Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Tacikistan Respublikasının Prezidenti yanında Statistika Agentliyi arasında statistika sahəsində əməkdaşlıq haqqında

anlaşma memorandumlarının layihələri dövlətdaxili prosedurların keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

Statistik Potensialın Artırılması Proqramı (StatCaB) çərçivəsində İslam Ölkələrinin Statistik, İqtisadi və Sosial Tədqiqatlar və Təlim Mərkəzinin (SESRIC) təşkilatçılığı ilə İƏT-ə üzv 25 ölkənin milli statistika qurumlarının 115 əməkdaşına Komitənin mütəxəssisləri tərəfindən "Əmək bazarının monitorinqi üçün işçi qüvvəsi müayinələrinin aparılması və təhlili" mövzusunda onlayn təlim keçirilmişdir. MDB Dövlətlərarası Statistika Komitəsinin cəlb etdiyi beynəlxalq ekspert tərəfindən hazırlanmış "MDB-yə üzv ölkələrdə qeyri-formal sektorda məşğulluğun statistik qiymətləndirilməsi" ilə bağlı ilkin aralıq hesabatda ölkəmizdə işçi qüvvəsinə dair tətbiq olunan statistik müayinə formasının BƏT-in Əmək statistiklərinin beynəlxalq konfranslarında qəbul edilmiş qətnamələrdən irəli gələn standartlara tam uyğunluğu, həmçinin müayinə formasında BƏT-in qeyri-formal sektorda məşğulluğun və qeyri-formal məşğulluğun qiymətləndirilməsi üçün tövsiyə etdiyi bütün əsas sualların və onların istifadəsi üçün alqoritmin mövcud olduğu qeyd edilmişdir.

Komitənin rəhbər heyəti də daxil olmaqla, 60 əməkdaşı müxtəlif beynəlxalq təşkilatlar və xarici ölkələrin milli statistika qurumları tərəfindən təşkil edilmiş 64 əyani tədbirdə, 87 əməkdaşı isə onlayn formada keçirilən 63 tədbirdə iştirak etmiş, mütəxəssisləri beynəlxalq ekspert və işçi qruplarının tərkibində fəaliyyətlərini davam etdirmişlər.

Azərbaycan Respublikası Prezidentinin fərman, sərəncam və tapşırıqlarının icra vəziyyətinin "Dövlət Nəzarəti İnformasiya Sistemi" vasitəsilə 2023-cü il üzrə qiymətləndirilməsinin nəticələrinə görə mərkəzi icra hakimiyyəti orqanları arasında 1-ci mövqedə qərarlaşmış Dövlət Statistika Komitəsi bundan sonra da üzərinə düşən vəzifələrin icrasını tələb olunan səviyyədə təmin etmək əzmindədir.